Həsrətin sel kimi axır üstümə,
Ötən sevdaları yuyub aparır…

Geymisən əyninə qısqanclıq donu,
Nələr düşünürsən baxıb güzgüyə?
Məbədlər boş qalmır, bilirsən bunu,
Öz tale payını vermə özgəyə….

Çətin ki, kiməsə əyiləm, ay qız,
Niyə həvəslisən könül qırmağa?
Mən yuva dağıdan deyiləm, ay qız,
Vaxtım var heç təzə yuva qurmağa?!

Sevginin önünü kəsmək çətindi,
Yığılıb, yığılıb, gölə dönəcək.
Nə vaxtsa uçurub bərəni, bəndi
Bir qorxunc, amansız selə dönəcək…

Göz açıb yumunca ömür qurtarır,
Günlərin ah-vayla ötüşüb sənin.
Min il gözlədiyn qismət qatarı,
Axır ki, yanına yetişib sənin…

Zamanın hökmünü bilmirsən məgər?
Onsuz da bu dünya deyil özündə.
Sevgi qatarına geciksən əgər,
Tənha qalacaqsan bu yer üzündə…

---

***Hörmətli Rafiq müəllim!***

***Sizi – tanınmış şair, ədəbiyyatşünas-alim, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisini 70 illik yubileyiniz münasibəti ilə "Azərbaycan" jurnalında çalışan həmkarlarınız ürəkdən təbrik edir. Siz keçən əsrin 70-ci illərində ədəbiyyata gəldiniz və elə ilk gəlişinizlə diqqəti cəlb etdiniz. Sizin bir alim kimi yazdığınız "Azərbaycan poeması: axtarışlar, perspektivlər", "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" və başqa əsərlərinizin ədəbiyyatşünaslıq elmimizdə öz yeri və çəkisi var. Rafiq müəllim, Siz uşaqlarımızın ədəbi zövqünün formalaşmasında və ümumiyyətlə, tərbiyəsində çox gərəkli işlər görürsünüz. Sizi yubileyiniz münasibəti ilə bir daha təbrik edir, Sizə möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.***

**Hörmətlə,**
**İntiqam QASIMZADƏ**